AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# AYLIQ İNFORMASİYA BÜLLETENİ

# AVQUST

## İSTEHLAKÇILARLA İŞ DEPARTAMENTİ





2023

İSTEHLAKÇILARLA İŞ DEPARTAMENTİNİN AYLIQ İNFORMASİYA BÜLLETENİ AYLIQ OLARAQ BAŞ VERƏN YENİLİKLƏR BARƏDƏ MƏLUMATLANDIRMA MƏQSƏDİ İLƏ HAZIRLANIB

## “966” qaynar xətti barədə məlumat yerləşdirlmişdir

Maliyyə xidmətləri istehlakçılarının və investorların qarşılaşdığı suallar və problemlərlə bağlı məlumat əldə edilməsi, həmçinin sorğu və şikayətləri ilə bağlı Mərkəzi Banka müraciət etmək imkanının təmin edilməsi Mərkəzi Bankın daim diqqət mərkəzində olan məsələlərdəndir. Bu məqsədlə bankların, bank olmayan kredit təşkilatlarının və sığorta şirkətlərinin inzibati binalarında “966” qaynar xətti barədə məlumat lövhələri yerləşdirilmişdir. Növbəti addım olaraq investisiya şirkətlərinin inzibati binalarında vətəndaşların diqqətini cəlb edən yerlərdə, eyni zamanda investisiya şirkətləri ilə vətəndaşlar arasında bağlanan müqavilələrdə “966” qaynar xətti barədə məlumat yerləşdirilməsi üçün Mərkəzi Bank tərəfindən Azərbaycan Fond Bazarı İstehlakçılarının Assosiasiyasına müraciət edilmiş və qeyd edilən məlumatın yerləşdirilməsi təmin edilmişdir.



## Cəlilabad rayonunda fəaliyyət göstərən səhmdar cəmiyyətlərinin maarifləndirilməsi istiqamətində görüşün keçirilməsinə dair

Səhmdarların hüquqlarının qorunmasının vacibliyini, habelə bu sahədə qanunvericiliyin səhmdar cəmiyyətlərinin idarəetmə orqanlarına qarşı tələblərinin daha müfəssəl izah olunmasının faydalarını nəzərə alaraq Azərbaycan Respublikasının Mərkəzi Bankının Maliyyə xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi şöbəsinin əməkdaşı tərəfindən Cəlilabad Rayon İcra Hakimiyyətinin dəstəyi ilə 11 avqust 2023-cü il tarixində qeyd olunan rayonda fəaliyyət göstərən səhmdar cəmiyyətləri ilə görüş keçirilmişdir.

Təşkil olunan görüşdə tərəfimizdən səhmdar cəmiyyətlərində korporativ idarəetmənin təkmilləşdirilməsi, emitentlərin illik hesabatlarının qanunvericilikdə nəzərdə tutulmuş qaydada tərtib edilməsi, səhmdarların ümumi yığıncaqlarının çağırılması və cəmiyyətlərin fəaliyyətinin qanunvericiliyə uyğun həyata keçirilməsi istiqamətində maarifləndirmə işləri aparılmışdır.

Qeyd edək ki, tərəfi-mizdən səhmdarların hüquqlarının qorunma-sı məqsədi ilə müxtəlif tədbirlərin keçirilməsi davam etməkdədir.



## Milli Depozit Mərkəzinin “966-0” qaynar xətti yaradılmışdır

Milli Depozit Mərkəzi Azərbaycan Respublikasının mərkəzi depozitarı olaraq Mərkəzi Bank tərəfindən təsis edilmiş qurumdur. Azərbaycan Respublikasının Mərkəzi Bankı investorların və kapital bazarının digər iştirakçılarının hüquqlarının müdafiəsi və kapital bazarı üzrə qanunvericiliklə səlahiyyətlərinə aid edilmiş digər fəaliyyəti həyata keçirdiyindən, Milli Depozit Mərkəzi ilə yaxın əlaqədədir.

Mərkəzi Bank və Milli Depozit Mərkəzi arasında qarşılıqlı əməkdaşlığın nəticəsi olaraq bir sıra tədbirlər həyata keçirilməkdədir. Mərkəzi Bankın dəstəyi ilə bu tədbirlərin davamı olaraq investorların və kapital bazarının digər iştirakçılarının Milli Depozit Mərkəzinə müraciət etmək imkanlarının genişləndirilməsi məqsədilə Milli Depozit Mərkəzinin “966-0” qaynar xətti yaradılmışdır.



## Azərbaycan Respublikasının Mərkəzi Bankı və “Regional İnkişaf” İctimai Birliyinin təşkilatçılığı ilə Şəki şəhərində vətəndaşların səyyar qəbulu keçirilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi ilə bağlı görülən mütəmadi tədbirlərin davamı olaraq 31.08.2023-cü il tarixində Şəki şəhərində “Regional İnkişaf” İctimai Birliyinin təşkilatçılığı ilə vətəndaşların səyyar qəbulu həyata keçirilmişdir. Qəbul zamanı vətəndaşların müraciətləri dinlənilmişdir. Vətəndaşların müraciətləri əsasən kredit borcuna güzəşt olunması, Mərkəzləşdirilmiş Kredit Reyestrindən məlumatların silinməsi, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” 2019-cu il 28 fevral tarixli Fərmanının əhatə etdiyi məsələlər, kredit istəyi, zaminin kredit borcunun ödənilməsindən azad edilməsi və borcun akseptsiz qaydada tutulması ilə bağlı olmuşdur. Vətəndaşlara müraciətlərində qeyd olunan məsələlərlə bağlı müvafiq izahatlar verilmiş, əlavə araşdırma tələb olunan məsələlərlə bağlı vətəndaşların ərizə yazmalarına şərait yaradılmaqla yazılı müraciət etmək hüquqları təmin edilmişdir. Bank fəaliyyəti ilə əlaqədar bəzi müraciətlər yerindəcə öz həllini tapmışdır. Həmçinin qəbul zamanı şifahi müraciətlərini ünvanlayan vətəndaşlardan zəruri məlumatlar əldə edilməklə müraciətlərinin araşdırmasının nəticəsi barədə əlavə məlumat veriləcəyi bildirilmişdir. Qeyd edək ki, qəbul zamanı vətəndaşlara maarifləndirici bukletlər paylanmışdır. Qeyd edək ki, daha öncə Lənkəran və Bərdə şəhərlərində vətəndaşların səyyar qəbulu həyata keçirilmişdir. Maliyyə xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi məqsədilə səyyar qəbulların keçirilməsi davam etdiriləcəkdir.



# VƏTƏNDAŞ MÜRACİƏTLƏRİ İLƏ BAĞLI STATİSTİK MƏLUMAT

## Daxil olan zənglər




## Yazılı müraciətlər




## Vətəndaşların qəbulu




Bank | Sığorta | Kapital bazarı | Digər

## Whatsapp üzərindən qeydiyyata alınmış müraciətlər haqqında məlumat




Mərkəzi Bankın rəsmi cavab məktubunun əldə edilməsi ilə bağlı

Əks Əlaqə

Nəzarət subyekti ilə əlaqə saxlanılmasında yaranan çətinliklə bağlı

Digər

## Mərkəzi Bankda şagirdlər üçün növbəti Maliyyə sağlamlığı tədbiri təşkil olunmuşdur

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən həyata keçirilən maliyyə maarifləndirməsi tədbirləri çərçivəsində 24 avqust 2023-cü il tarixində Maliyyə sağlamlığı tədbirinin ikinci mərhələsinə start verilmişdir. Tədbirdə ölkənin 14 bölgəsindən 14-16 yaşlı 30 şagird iştirak etmişdir. Yay məktəbinin ilk günündə iştirakçılara Resurslar, Rasional qərarların verilməsi və İqtisadi düşüncə tərzi mövzuları təqdim edilmişdir. Uşaqlar mövzulara böyük maraq göstərmiş və müzakirələrdə fəal iştirak etmişdilər. Bundan sonrakı günlərdə uşaqlara Məhsuldarlıq, Pulun idarə edilməsi, Cari hesabın açılması və istifadəsi, Hansı vergilər sizə təsir edir?, Niyə yığaq?, Gəlin borc verən və borc alan olaq, Yığım planı və investisiyanın növləri, Kim ödəyir və kim qəbul edir?, Səhmlər və Qarşılıqlı Fondlar, Təhsilimizi niyə davam etdirək? və Karyera seçimi mövzularında seminarlar veriləcəkdir.



## Mərkəzi Bankın "Maliyyəçisən" təcrübə proqramının iştirakçıları üçün təqdimat



17 avqust 2023-cü il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankının "Maliyyəçisən" təcrübə proqramının iştirakçıları üçün Maliyyə savadlılığı mövzusunda təqdimat təşkil edilmişdir.

Təqdimatda "Maliyyə savadlılığı nədir?" mövzusu əhatə olunmuş, Mərkəzi Bankın Maliyyə savadlılığı şöbəsinin fəaliyyətinə və elektron resurslarına - Maliyyə savadlılığı portalı (bizimpullar.az), Virtual təhsil platforması (edu.e-cbar.az) və Maliyyə məhsul və xidmətlərinin məlumat – axtarış sisteminə (infobank.az) dair ətraflı məlumat verilmişdir.

Olduqca interaktiv keçən tədbirdə təcrübəçilər tanış olduqları resurslar haqqında fikirlərini söyləmiş və təkliflər irəli sürmüşdülər, eyni zamanda təcrübəçiləri maraqlandıran suallar Maliyyə savadlılığı şöbəsinin əməkdaşları tərəfindən cavablandırılmışdır.



## Mərkəzi Bank ilə Mediasiya Şurası arasında görüş keçirilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankının İstehlakçılarla iş departamenti maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi istiqamətində işlər görür, eyni zamanda istehlakçıların maliyyə savadlılığının artırılması istiqamətində də davamlı olaraq tədbirlər təşkil edir. Bu tədbirlərin davamı olaraq əhatəliliyi genişləndirmək məqsədilə mübahisələrin alternativ həlli üsulu kimi nəzərdə tutulmuş mediasiya sahəsində tənzimləməni həyata keçirən Mediasiya Şurası ilə əməkdaşlıq çərçivəsində 24.08.2023-cü il tarixində görüş keçirilmişdir. Görüş zamanı Mərkəzi Bankın müxtəlif hədəf qruplarının maliyyə savadlılığının artırılması istiqamətində hazırlanmış elektron resursları (www.infobank.az, www.edu.e-cbar.az, www.bizimpullar.az) təqdim olunmuş, mediatorlara maliyyə savadlılığının artırılması istiqamətində təlimlərin təşkili və Mediasiya Şurasının rəsmi internet səhifəsində müvafiq elektron resurslara keçid imkanlarının yaradılması, birgə əməkdaşlıq çərçivəsində maliyyə xidmətləri istehlakçılarının mediasiya fəaliyyəti haqqında məlumatlandırılmasına dair maarifləndirici resursların hazırlanmasına dair müzakirələr aparılmışdır.

Görüş nəticəsində qarşılıqlı tədbirlərin keçirilməsi planlaşdırılır.



## Azərbaycanda ilk dəfə sığorta festivalı keçiriləcək




Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosunun birgə əməkdaşlığı çərçivəsində Azərbaycanda ilk dəfə "Sığorta Festivalı" təşkil olunacaq.

Festival 26 avqust tarixində Bakı şəhərində Dənizkənarı Milli Park ərazisində başlamışdır. Tədbirin Sumqayıt, İsmayıllı, Quba, Lənkəran, Mingəçevir, Gədəbəy, Şəki və Zaqatalada keçirilməsi nəzərdə tutulmuşdur. Tədbir 10 sentyabr tarixində Gəncə şəhərində başa çatacaqdır. Tədbir ölkədə fəaliyyət göstərən sığorta şirkətlərinin iştirakı ilə "edutatement" formatında təşkil olunacaq.

Media nümayəndələrinə festivalın təqdimatını nümayiş etdirilib. Təqdimata əsasən, maraqlı proqramlarla təşkil olunmuş festivalda əhalinin iştirakı sərbəst olacaq. Uzunmüddətli təəssürat yaratmağı vəd edən "roadshow"da həm əyləncəli, həm də məlumatlandırıcı oyunların keçirilməsi, bununla da sığorta savadlılığının artırılması hədəflənir. Hədiyyəli müsabiqələr, musiqili proqramlar, faydalı məlumatlarla əhali əsl festival ab-havası yaşayacaq.

Qeyd edək ki, Festival Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 may 2019-cu il tarixli 354s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Sığorta sektorunun inkişaf etdirilməsi üçün görülməli işlərlə bağlı Tədbirlər Planı"nın maarifləndirmə və təbliğat-təşviqat tədbirinin icrası məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosasiyası və İcbari Sığorta Bürosunun birlikdə həyata keçirdiyi genişmiqyası maarifləndirmə layihəsinin tərkib hissəsidir

# TƏDBİRLƏR üzrə STATİSTİKA




**94** İmtahan

**59** Sertifikat

Təlim, seminar, vebinar **2**

İştirakçı **60**



# ELEKTRON RESURSLAR üzrə STATİSTİKA

## Ziyarətçilər




## Baxışlar




bizimpullar.az | edu.e-cbar.az | infobank.az